**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**

**№2**

**Bakı şəhəri** **19 fevral 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Loğman Zahid oğlu Xudaquliyevin Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il noyabrın 30-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Xudaquliyev Loğman Zahid oğlu Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 05 avqust tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2020-ci il noyabrın 30-da Dövlət Statistika Komitəsi aparatının Əmək statistikası şöbəsinin müdiri Nemət Xuduzadə, Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Rövşən Əsədov və müstəqil ekspert Mais Köçərlidən ibarət komissiya tərəfindən keçirilmişdir. Xudaquliyev Loğman Zahid oğluna müsahibə komissiyasının üzvlərindən N.Xuduzadə 13 bal, M.Köçərli 14 bal, R.Əsədov isə 13 bal vermiş və nəticədə iştirakçı 13,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 17.12.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi R.Əsədovun rəyinə əsasən namizəd müsahibə zamanı ona verilən suallara tam və ətraflı cavab verməmiş, eyni zamanda bir çox sualları səhv cavablandırmışdır. Namizədin ümumi dünyagörüşü qənaətbəxşdir, lakin vakant vəzifə üçün zəruri olan keyfiyyətləri lazımi səviyyədə deyildir. Müstəqil ekspert M.Köçərlinin rəyinə əsasən namizədin müsahibə proqramı və peşə hazırlığı üzrə bilikləri, onun tətbiqi imkanları vəzifənin tutulma şərtlərinə cavab vermir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Xudaquliyev Loğman Zahid oğlunun 17 dekabr 2020-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi

vəzifəsinin tutulması üçün 2020-ci il noyabrın 30-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**